# "AÇIL, AY BAĞLANAN QAPI"

## (Ətraf Sərrafın şeirləri haqqında)



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Ətraf Sərraf da altmış yaşına gəlib çatdı və artıq səkkiz şeir kitabının müəllifi olan bu şair və onun şeirləri haqqında bir-iki yazı istisna olunmaqla tutarlı bir söz deyilməyib. Amma Ətrafın şeirlərinə nəzər yetirəndə, qarşımızda istedadlı və sözə həssas bir şairin şeirləri ilə qarşılaşırıq. Hər şeydən əvvəl, Ətrafın şeirləri fikrin poetik ifadəsi, ürəklə ağlın vəhdəti, məna ilə formanın birliyi baxımından uğurludur. Onun şeirləri əsasən poeziyada işlənən, başqa-başqa şairlərin müraciət etdikləri mövzularda yazılsa da, təzəliyilə seçilir, yəni ənənəvi mövzularda yeni söz deyə bilir. Yol, İşıq, Dərd, Su, Qapı, Körpü, Bulud- bu obrazların şeirimizdə onlarla ifadəsi ilə qarşılaşa bilərik. Ətraf heç kimi təkrar və təqlid eləmir, hər bir əşyaya, predmetə özünün görüm nöqtəsindən yanaşır.**

**İntizarlı baxışlarnan,**
**Bir ömür oxlanan qapı.**
**Zamanın sərt küləyiynən**
**Döyülən, yoxlanan qapı.**

**Bu hikməti duydum mən də,-**
**Dünyaların sirri səndə,**
**Hər açılıb-örtüləndə,**
**Önündə ağlanan qapı.**

**Çox uzandı, səfərim, çox,**
**Bu üzündə kədərim çox,**
**O üzündən xəbərim yox,**
**Açıl, ay bağlanan qapı.**

Şeirimizdə ayrı-ayrı obrazların insan taleyi ilə bağlılığı artıq bir ənənə yaratmaqdadır. Ətraf Sərrafın şeirlərindəki o obrazlar da məhz insan ömrünün, yaşadığı həyatın bəlirtilərini əks etdirir. "Qapı" şeirində də bunu gördük. O qapı rəmzdir-insan arzularının, gözlədiyi, amma bəxtinə açılmadığı səadətin müjdəsini dadmadığı xəyaldır. Bu xəyallar isə gerçəkləşmir. Gözləyə-gözləyə qalırsan. Və birdən:

**Xəyaldaydım, bir səs məni oyatdı,**
**Mən oyandım, bəxtim kimi o yatdı**
**Görən, Allah, gedənimmmi qayıtdı,**
**Durum görüm kimdi döyən qapımı?**

**Ömrümün də kədəri çox, ahı çox,**
**Ürəyimin dözümü yox, tabı yox,**
**Bu dünyada döyülməmiş qapı yox**
**Durum görüm kimdi döyən qapımı?**

**Əzabıynan ömrüm mənə çox gəlib,**
**Bəlkə indii ayağıma bəxt gəlib,**
**Yoxsa, Allah, gözlədiyim vaxt gəlib,**
**Durum görüm kimdi döyən qapımı?**

Ətraf Sərrafın şair fərdiyyətini ifadə edən şeirləri daha çox onun 2011-ci ildə çap etdirdiyi "Ayrılığın o üzü" kitabında cəm olunub. Sonrakı "Yerinə utandığım adamlar" və "Durum görüm kimdi döyən qapımı" kitablarında da adına ŞEİR deyiləcək nümunələr az deyil. Bəs bir şa-




ir kimi onun özünəməxsusluğunu təyin edən, Ətrafı bir ŞAİR kimi tanıdan hansı fərdi xüsusiyyətlərlə qarşılaşırıq.

İlk növbədə, bu şeiolərdə həyata, gerçəkliyə öncə qeyd etdiyimiz fərdi və fərqli bir düşüncə diqqəti cəlb edir.Ətraf dünyanı bürüyən xaosdan da yazır, məhəbbət yarasının sağalmadığında Qocalıqdan da söz açır, adi bir çiçəyin taleyindən də Şəhərin payız səhərindən də, xoşlamadığı, ürəyinə yatmadığı- "yerinə utandığı adamlardan" da. Amma nə yazırsa, orada onun özünə məxsus incələmələri olur. İncə, zərif bir çiçəyin kiminsə əlində xəlbirlənib üzüləcəyi hissi onu rahat buraxmır. "Allah, onu yaxşı ələ qismət et!" deyir. Şair qəşəm Nəcəfzadə onun haqqında yazır ki: "Ətraf Sərraf çox kövrək adamdır".

Bu kövrəklik onun şeirlərinin rühünü təşkil edir, deyərdik. Amma bu kövrəklik bəzən öz yerini çılğınlığa, sərtliyə də verə bilir. Şair-publisist Əli Həsən yazır ki: "Mən onu sakit təbiətli, bir qədər də utancaq insan kimi tanıyıram. Amma bu utancaqlıq şair Ətraf Sərrafda nisbidir, keçib-cedəndir. Bir də gördün ki, qara bulud kimi doldu və yağıb-boşalmağa başladı". Əslində, hər bir şairdə yaşadığı mühitin naqisislikləri ilə bağlı barışmazlığı, tənqidi mövqeyi olur. Budur, bir yaltağın obrazı: "Qollarının ucundakı əl deyil ki, böyüklərin ətəyindən yapışmaqçün bir alətdir". Və cilddən-cildə girən bir buqələmun: "Gülüş öz gülüşü deyil, Yeriş öz yerişi deyil, Arvad deyil, kişi deyil, Onu niyə yaratdın, Allah?" Tənqid və ifşa etdiyi adamların zahiri görkəmi ilə daxili aləmi arasındakı uyarlığı da canlandıra bilir:

**Boyu ucadı,**
**Uzaqdan gözə çarpır**
**gəmi doru kimi.**
**Evin damından çölə çıxan**
**buxarı kimi.**
**Kişilik yükünü o hündürlüyə qaldırıb**
**çiynində daşıya bilsəydi,**
**Barmaqla göstərilən kişi olardı,**
**beləcə yaşaya bilsəydi...**

Ətraf Sərraf miniatür şeirlər yazmağa da meyl edir. Uzun-uzadı şeirlər yazıb oxucunu yormaqdansa, fikrini qısa,həm də lakonik şəkildə ifadə etməyə üstünlük verir. Əksərən də buna nail olur.

**Biz kimik?**
**-Məsum bir eşqin yetim balaları,**
**ömrü-günü acı.**
**Abrımıza qısılıb qalmışıq.**
**Ayrılıq aramızda-**
**dar ağacı.**
**Hərəmiz bir tərəfindən**
**Asılığ qalmışıq.**

Amma bu tipli şeirlərin içərisində ŞEİR olmayan "şeirlər" də var. "Hərə bir cür", "Enməyəcəyəm", "Borclu qaldım" və s.

Ətraf Sərrafın elə şeirləri var ki, onlar haqqında söz açmamaq insafsızlıq olardı. Məsələn, dəlilər və dəlilik mövzusunda yazdığı "Bir dəli vardı" şeiri ağıllı insanın faciəsini, yaşadığı mühitdə anlaşılmamasını əks etdirən yaxşı bir şeirdir. "Bənövşə" şeiri Qurbanidən üzü bəri yazılan bənövşə silsiləsində layiqli yer tuta bilər. "Bulud" şeiri insan və təbiət harmoniyasını əks etdirir. "Kənddə düşündüklərim" torpağa bağlılığı, yurdu sevməyi təlqin edir.

**İnanmaq istərdik ki, ömrünün altmışıncı baharını yola salan Ətraf Sərrafın yaradıcılıq potensialı tükənməyəcək. Altmışdan sonra - kamillik dövrünün ucalığında təzə, təravətli, əsil poeziya nümunələri gözləyirik sizdən...**